

# Milli birliyin və mənəvi gücün təntənəsi

***Dövlətimizin başçısı İlham Əliyev Vətən müharibəsində Azərbaycanın möhtəşəm qələbəsini şərtləndirən amillərdən bəhs edərkən, ilk növbədə, xalq-ordu-Prezident birliyini vurğulayaraq, deyib: “Mənə güc verən məhz xalqımızın əzmkarlığı idi. Bu torpaqları görməyən cavanlarımız bu torpaqlar uğrunda ölümə gedirdilər. Bu, xalqımızın böyüklüyünü bir daha göstərir”.***

Ölkə rəhbəri çıxışlarında uzun illər ərzində xalqımızın bir arzu, bir fikirlə yaşadığını, nə vaxtsa haqq-ədalətin bərpa ediləcəyini, “məğlubedilmiş” sözünə son qoyulacağını, bundan sonra isə qürurlu, müzəffər xalq kimi ömür sürəcəyinə əminliyini də dəfələrlə xatırladıb. Prezident İlham Əliyev “əgər xalqımız buna inanmasaydı, əgər cəmiyyətimiz bizim o sahədəki siyasətə dəstək olmasaydı müharibəni bu nəticələrlə başa vurmaq çox çətin olardı. Ona görə, bu, bizim hamımızın qələbəsidir, hamımızın təntənəsidir”,- deyə vurğulayıb.

Azərbaycan Ordusu elə bu inam və əminliklə də ötən il sentyabrın 27-də işğalçı Ermənistan ordusunun hücumuna qarşı əks-həmlə əməliyyatlarına başladı. Qırx dörd günlük İkinci Qarabağ müharibəsində Silahlı Qüvvələrimiz qəsbkarın 30 illik işğalına son qoydu. Beləliklə, Azərbaycanın savaşda əldə etdiyi parlaq zəfərdən sonra Cənubi Qafqazda yeni geosiyasi reallıq yarandı, respublikamızın dünyada öz sözü, mövqeyi, müstəqil xarici siyasəti olan ölkə imici daha da möhkəmləndi, bütün istiqamətlər üzrə inteqrasiya və inkişafın, xüsusən də uzunmüddətli sülh və təhlükəsizliyin əsası reallaşdı.

Bu möhtəşəm qələbəyə, uzun illər davam edən tarixi ədalətsizliyə son qoyan misilsiz zəfərə Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş və uzaqgörən siyasətin, eyni zamanda, milli birliyin və mənəvi gücün sayəsində nail olundu.

Ölkə rəhbəri belə bir müdrik siyasəti hesabına həm də dünyada uğurlu qlobal təşəbbüslərin müəllifi kimi tanınıb. Dövlətimizin başçısı son illərdə irəli sürdüyü həmin təşəbbüsləri ilə beynəlxalq aləmdə böyük rəğbət və dəstək qazanıb.

***(ardı 3-cü səhifədə)***

# Milli birliyin və mənəvi gücün təntənəsi



*(əvvəli 1-ci səhifədə)*

Bu uğurlu qlobal təşəbbüsləri isə dünyada hökm sürən ayrı-seçkilik, irqçilik və ksenofobiya, hələ də davam edən COVID-19 pandemiyasının doğurduğu sosial-iqtisadi mühit, iqlim dəyişikliyi və digər mənfi amillər şərtləndirib.

Yeri gəlmişkən, COVID-19 pandemiyasına qarşı mübarizə sahəsində Qoşulmama Hərəkatı adından qurumun sədri, Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü uğurlu qlobal təşəbbüslər bu fikrin bariz ifadəsidir.

Ümumiyyətlə, COVID-19 böhranı ilə əlaqədar Qoşulmama Hərəkatı Təmas Qrupunun Zirvə toplantısının təşkili, pandemiya ilə mübarizədə təşkilata üzv ölkələrin əsas humanitar və tibbi ehtiyaclarına dair vahid məlumat bazasının yaradılması, koronavirusla bağlı vəziyyətin müzakirəsi üçün BMT Baş Assambleyasının Xüsusi Sessiyasının çağırılması, həmçinin BMT-nin İnsan Hüquqları Şurası tərəfindən bütün ölkələr üçün virus əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın reallaşdırılması haqqında qətnamənin qəbul edilməsi görülən tədbirlərdən yalnız bir neçə nümunədir. Cari ilin noyabrın 17-də Qoşulmama Hərəkatının təşəbbüsü ilə BMT Baş Assambleyasının üçüncü komitəsi tərəfindən səs çoxluğu ilə COVID-19-a qarşı vaksinlərin ədalətsiz paylanmasına dair qətnamənin qəbulu da dövlətimizin başçısının qlobal təşəbbüsünün uğurlu məntiqi nəticəsidir.

Bu məqamda onu qeyd edək ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə respublikamızda da pandemiya və vaksinasiya tədbirlərinin gerçəkləşdirilməsi daim diqqətdə saxlanılıb. Belə ki, cari ilin sonunadək hər ölkə üzrə əhalinin minimum 40 faizinin vaksinasiya olunması nəzərdə tutulduğu halda, Azərbaycan üzrə bu göstərici artıq 44 faizi keçib.

Son 18 ildə respublikamızın milli birliyin və mənəvi gücün sayəsində əldə etdiyi uğurlu nəticələr, inkişaf göstəricilərinin davamlı olaraq yüksəlməsi həyata keçirilən siyasətin, aparılan islahatların real həyatda təsdiqini əks etdirib, sosial-iqtisadi nailiyyətlərin davamlılığı və dayanıqlı inkişaf üçün etibarlı zəmin yaradıb. Təsadüfi deyildir ki, dünyada yaşanan ən ağır maliyyə və iqtisadi böhran pandemiya şəraitində belə Prezident İlham Əliyevin çevik, praqmatik siyasəti ilə Azərbaycan xarici iqtisadi təsirləri neytrallaşdırıb, nəzərdə tutulan bütün sosial-iqtisadi proqramlar tam icra edilib, iqtisadiyyatımız artıb. Bütün bunlara nail olunmasında isə iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi tədbirləri xüsusi önəm kəsb edib.

Vətən müharibəsində qazanılan Zəfərdən sonra Qarabağ və Şərqi Zəngəzurda Azərbaycan Ordusunun, Sərhəd Qoşunlarının, daxili işlər, təhlükəsizlik orqanlarının fəaliyyətinin reallaşdırılması, su, elektrik enerjisi, qaz təchizatı, rabitənin bərpası, həmçinin yol infrastrukturunun qurulması ilə əlaqədar işlərin icrası, əhalinin məskunlaşdırılması, insanların həyat şəraitinin yaxşılaşdırılması, dayanıqlı və davamlı iqtisadi fəallığının təmin edilməsinə yönəldilən infrastruktur layihələrinin həyata keçirilməsi kimi tədbirlərin qısa vaxt ərzində gerçəkləşdirilməsi də milli birliyin və mənəvi gücün hesabına mümkün olub.

Bütün bunlar, eləcə də dövlətimizin başçısının paytaxtda və bölgələrdə vətəndaşlarla keçirdiyi səmimi görüşlər, onların qayğıları ilə yaxından maraqlanması, insanların sosial rifahının yaxşılaşdırılması istiqamətində verilən qərarlar ölkəmizdə xalq-iqtidar birliyini daha da möhkəmləndirib, xalqın Prezidentinə olan inamını daha da artırıb. Bir sözlə, bütün bu amillər, həm də Prezident və xalq birliyi konsepsiyasının əsas qayəsini təşkil edib.

Dövlət başçısının rəhbərliyi ilə ötən illərdə uğurla reallaşdırılan sosial-iqtisadi islahatların nəticəsi olaraq respublikamız hazırda qlobal maliyyə, geosiyasi və iqtisadi böhrandan uğurla çıxan, özünəməxsus milli inkişaf modelini yaradan dövlətlərdən biri kimi tanınır, adı beynəlxalq aləmdə sosial-iqtisadi göstəriciləri ildən-ilə yüksələn nüfuzlu ölkə kimi çəkilir.

Prezident İlham Əliyevin sosial-iqtisadi inkişafa göstərdiyi diqqət və qayğı nəticəsində hazırda respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasına yönələn bu tədbirlər bir daha təsdiqləyir ki, dövlətimizin başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar da Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır.

Məhz yuxarıda qeyd edilən məqamları nəzərdə tutan Prezident İlham Əliyev çıxışlarının birində deyib: “Bütün bu nailiyyətlər deməyə əsas verir ki, inkişafımız bundan sonra da uğurlu olacaq, gələcəyimiz parlaq olacaq və uğurlu gələcəyimizin əsas şərti daxili sabitlikdir. Sabitliyin də təminatçısı Azərbaycan xalqıdır, onun rəyidir, onun bizə verdiyi dəstəkdir. Xalq-iqtidar birliyi Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir və eyni zamanda, dinlərarası münasibətlər də bizim gücümüzü artırır”.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***